**UDC:** 32.; 323.; 329.; 353.
**LBC:** 66.62
**MJ №** 292
10.33864/2617-751X.2025.v8.i3.221-230

# DEMOCRATIC STATE AND CIVIL SOCIETY IN THE CONTEXT OF LOCAL SELF-GOVERNMENT

**Orkhan Aliyev***

**Abstract.** The article is based on the necessity of the existence of the local self-government model, including the analysis and comparisons conducted in this context. It is an undeniable fact that the initial mechanism of operation of the local self-government model existed in many countries (especially European countries) as early as the Middle Ages. However, after the second half of the 20th century (post-war period), numerous radical reforms carried out in many countries of the world around the theory of state and governance led to the formation of structures oriented towards the basic criteria of democratic principles. Most importantly, the protection of the rights and freedoms of the country's citizens, the focus of socio-economic development strategies covering all demographic categories of society were evaluated as the main factors, and legislative acts were adopted based on normative-legal principles. The results of scientific research conducted in this direction, in turn, formed the inevitability of a state structure that directly covers various categories of social groups of society. Because one of the main reasons for wars, massacres, coups and revolutions that have occurred in all periods of our world history has been the tyrannical establishment of management elements on personal ambitions, the restriction of the moral and ethical values of the human factor. From this aspect, the creation of a structure that will directly bridge the statehood model with society and connect them - the local self-government model - is accepted as the foundation of modern democratic values. The article studies the structure of local self-government on three important elements (human factor, governance, democratic state and civil society), and socio-philosophical, including analytical comparisons, are made in this direction. The article is dedicated to my great master Ali muallim Akbarli, who taught me the basic knowledge of state and governance.

**Keywords:** local self-government, democratic state and civil society, human factor, governance, modern

---

* Master's student at Baku Business University; Baku, Azerbaijan
E-mail: o.eliyev11124@gmail.com
https://orcid.org/0009-0008-2637-0313

**To cite this article:** Aliyev, O. [2025]. DEMOCRATIC STATE AND CIVIL SOCIETY IN THE CONTEXT OF LOCAL SELF-GOVERNMENT. *“Metafizika” journal, 8*(3), pp.221-230.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.221-230

***Article history:***
*Received: 29.03.2025*
*Accepted: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.; 329.; 353.
**ББК:** 66.62
**MJ №** 292
10.33864/2617-751X.2025.v8.i3.221-230

# ДЕМОКРАТИЧЕСКОЕ ГОСУДАРСТВО И ГРАЖДАНСКОЕ ОБЩЕСТВО В КОНТЕКСТЕ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ

**Орхан Алиев***

**Абстракт.** В статье обосновывается необходимость существования модели местного самоуправления, в том числе анализ и сравнения, проводимые в этом контексте. Неоспоримым фактом является то, что первоначальный механизм функционирования модели местного самоуправления существовал во многих странах (особенно европейских) еще в Средние века. Однако после второй половины XX века (послевоенный период) многочисленные радикальные реформы, проведенные во многих странах мира вокруг теории государства и управления, привели к формированию структур, ориентированных на основные критерии демократических принципов. Самое главное, что в качестве основных факторов оценивались защита прав и свобод граждан страны, направленность стратегий социально-экономического развития, охватывающих все демографические категории общества, а законодательные акты принимались на основе нормативно-правовых принципов. Результаты научных исследований, проводимых в этом направлении, в свою очередь, непосредственно сформировали необходимость государственного устройства, охватывающего различные категории социальных групп общества. Потому что одной из главных причин войн, массовых убийств, переворотов и революций, которые происходили на протяжении всей нашей мировой истории, было установление тиранических элементов управления, основанных на личных амбициях и ограничении моральных и этических ценностей человеческого фактора. С этой точки зрения создание структуры, которая напрямую свяжет модель государственности с обществом и соединит их,- модели местного самоуправления- рассматривается как основа современных демократических ценностей. В статье рассматривается структура местного самоуправления на основе трех важных элементов (человеческий фактор, управление, демократическое государство и гражданское общество), проводятся социально-философские, в том числе аналитические, сопоставления в этом направлении. Статья посвящается моему великому учителю Али Акбарли, который научил меня основам государства и управления.

**Ключевые слова:** местное самоуправление, демократическое государство и гражданское общество, человеческий фактор, управление, современный

---

* Магистрант Бакинского Университета Бизнеса; Баку, Азербайджан
E-mail: o.eliyev11124@gmail.com
https://orcid.org/0009-0008-2637-0313

**Цитировать статью:** Алиев, О. [2025]. ДЕМОКРАТИЧЕСКОЕ ГОСУДАРСТВО И ГРАЖДАНСКОЕ ОБЩЕСТВО В КОНТЕКСТЕ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ. *Журнал «Metafizika», 8(3),* с.221-230.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.221-230

***История статьи:***
*Статья поступила в редакцию: 29.03.2025*
*Отправлена на доработку: 30.04.2025*
*Принята для печати: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.; 329.; 353.
**KBT:** 66.62
**MJ №** 292
10.33864/2617-751X.2025.v8.i3.221-230

# YERLİ ÖZÜNÜİDARƏETMƏ KONTEKSTİNDƏ DEMOKRATİK DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ

**Orxan Əliyev***

**Abstrakt.** Məqalə yerli özünüidarəçilik modelinin mövcudluğunun zəruriliyi, o cümlədən bu kontekstdə aparılan təhlil və müqayisələr üzərində qurulmuşdur. Yerli özünüidarəçilik modelinin ilkin fəaliyyət mexanizminin hələ orta əsrlərdə artıq bir çox ölkələrdə (xüsusilə Avropa ölkələrində) mövcudluğu danılmaz bir gerçəklikdir. Amma XX əsrin 2-ci yarısından sonra (postmüharibə dövrü) dünyanın bir çox ölkələrində dövlət və idarəçilik nəzəriyyəsi ətrafında aparılan çoxsaylı köklü islahatlar demokratik prinsiplərin təməl meyarlarına yönəlik strukturların formalaşmasına gətirib çıxartdı. Ən başlıcası isə ölkə vətəndaşının hüquq və azadlıqlarının qorunması, cəmiyyətin bütün demoqrafik kateqoriyalarını əhatə edən sosial-iqtisadi inkişaf strategiyalarının təmərküzləşməsi başlıca faktor olaraq dəyərləndirilmiş, normativ-hüquqi prinsiplər əsasında qanunvericilik aktları qəbul olunmuşdur. Bu istiqamətdə aparılan elmi tədqiqatların nəticəsi isə öz növbəsində bilavasitə cəmiyyətin müxtəlif kateqoriyalı sosial zümrələrini əhatə edən dövlət strukturunun labüdlüyünü formalaşdırdı. Çünki dünya tariximizin bütün dövrlərində baş verən müharibələrin, qətliamların, çevriliş və inqilabların başlıca səbəblərindən biri də məhz idarəçilik elementlərinin istibdad üsulla şəxsi ambisiylar üzərində qurulması, insan faktorunun mənəvi-əxlaqi dəyərlərinin məhdudlaşdırılması olmuşdur. Bu aspektdən dövlətçilik modelinin bilavasitə cəmiyyətlə körpü rolunu oynayacaq, onları əlaqələndirəcək strukturun-yerli özünüidarəçilik modelinin yaranması modern demokratik dəyərlərin bünövrəsi olaraq qəbul edilir. Məqalədə yerli özünüidarəçilik strukturu üç mühüm element (insan faktoru, idarəçilik, demokratik dövlət və vətəndaş cəmiyyəti) üzərində tədqiq olunmuş, bu istiqamətdə sosial-fəlsəfi, o cümlədən analitik müqayisələr aparılmışdır. Məqalə dövlət və idarəçilik elminin təməl bilgilərini mənə öyrətmiş böyük ustadım Əli müəllim Əkbərliyə ithaf olunur.

**Açar sözlər:** yerli özünüidarəetmə, demokratik dövlət və vətəndaş cəmiyyəti, insan faktoru, idarəetmə, modern

---

* Bakı Biznes Universitetinin magistrantı; Bakı, Azərbaycan
E-mail: o.eliyev11124@gmail.com
https://orcid.org/0009-0008-2637-0313

**Məqaləyə istinad:** Əliyev, O. [2025] YERLİ ÖZÜNÜİDARƏETMƏ KONTEKSTİNDƏ DEMOKRATİK DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ. *“Metafizika” jurnalı, 8*(3), səh.221-230.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.221-230

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 29.03.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 30.04.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Bəşəriyyət tarixinin konseptual inkişaf tarixinə təsnifati yanaşma "homo sapiens" ibarəsinin çoxmərkəzli təhlilinə dair müxtəlif elementləri özündə ehtiva edir. Bura insanın spesifik fərd baxımından özünəməxsus psixoloji elementləri, sosial yanaşma baxımından cəmiyyət və dövlətçilik iyerarxiyasında rolu, multukultural dəyərlər baxımından etnik-mədəni formulası və digər periferik şaxələr aiddir. Məhz bu cür yanaşma çağdaş psixologiyada insan anlayışını adətən "biopsixososial varlıq" olaraq tədqiq edir. Bu məfkurə özlüyündə belə müəzzəm elementlərə malikdir. Belə ki, insanlıq tarixinin bütün inkişaf dövrləri qətl, müharibə, genosid, çevriliş, dəhşətli soyqırım və digər neqativ təzahürlərlə zəngindir. Bu təzahürlərin təməl səbəbləri artıq hamımıza bəllidir: istibdad idarəçilik, insan hüqüq və azadlıqlarının pozulması, vətəndaş cəmiyyətinin suverenliyinin təmin olunmaması, dövlətçilik elementlərinin şəxsi mənafe, korrupsiya, klançılıq və digər naqis elementlər üzərində qurulması və s. Yuxarıda sadalanan problemlərin başlıca meyarı isə məhz insan amilinə olan qərəzli və etinasız yanaşmadır. Bu etinasızlığın fərd, cəmiyyət, həmçinin dövlətçilik konyukturasında mövcudluğu məntiqi yanaşma baxımından birmənalı şəkildə məhv olmağa, tənəzzülə gətirib çıxarır. Eramızdan əvvəl IV əsrdə yaşamış qədim yunan alimi Aristotel bu məsələyə özünəməxsus yanaşma sərgiləmişdir: "Dövlət üçün ən böyük xoşbəxtlik ondan ibarətdir ki, onun vətəndaşları, kifayət dərəcədə olmaqla, orta mülkiyyət sahibi olsunlar; amma o halda ki, bəziləri çox şeyə sahibdirlər, digərləri isə heç nəyə malik deyillər, məhz qarşıdakı ifratçılığın təsiri ilə ya ifrat demokratiya, ya təmiz halda oliqarxiya, ya da istibdad-üsul idarəsi meydana çıxır" [Aristotel, s.155].

Qeyd etmək vacibdir ki, insan faktoruna olan spesifik yanaşma bütün dövrlərdə, o cümlədən çağdaş dövrümüzün alim və mütəfəkkirlərinin əsərlərində də diqqət mərkəzində olmuşdur. Bu yönümdən bəşər tarixinin ən böyük fiziklərindən biri sayılan Eynşteyn söyləmişdir: "Bizim dövrün problemi atom bombası deyil. Bizim dövrün problemi insan qəlbidir" [Əsədova, s.9].

## 2.Əsas hissə

İnvent analiz baxımından əminliklə deyə bilərik ki, insan qəlbinin öyrənilməsi, təkcə fərdi yanaşma kontekstində deyil, püxtələşmiş vətəndaş cəmiyyətinin qurulması, o cümlədən demokratik dəyərlərə və idarəçiliyə sahib istənilən dövlətin başlıca meyarı olmalıdır. Zənnimizcə bu xüsusi yanaşma yerli özünüidarəetmə strukturunun mövcudluğunun, zəruriliyinin isbatı kimi dəyərləndirilməlidir. Çünki istənilən gerçək demokratik dövlət və vətəndaş cəmiyyəti modeli təkcə sosial zümrələr üzərində deyil, məhz hər bir fərdin, ölkə vətəndaşının rifahı, onun hüquq və azadlıqlarının qorunması və digər

elementlər üzərində bərqərar olmalıdır. Bu reallığa gerçək istinadlardan biri olaraq yenidən Aristotelin yanaşmasını əlavə edə bilərik: "Dövlət yalnız yaşamaq naminə deyil, başlıca olaraq xoşbəxt yaşamaq naminə qurulur, əks təqdirdə həmçinin qullardan, yaxud heyvanlardan ibarət dövləti də ehtimal etmək olardı, bu isə gerçəklikdə mövcud deyil, zira nə bunlar, nə də o birilər xoşbəxtliyə can atanların və özlərinə istədikləri kimi həyat quranların hamısı tək cəmiyyəti təşkil etmir" [Aristotel, s.101].

Mövcud aspektdən dövlət və idarəçilik modelində bilavasitə hər bir vətəndaşın qayğı ilə əhatə olunması, yarana biləcək problemlərin çözülməsi və digər zərurətlərlə bağlı xüsusi strukturun yaradılması başlıca faktor olaraq dəyərləndirilməlidir. Yerli özünüidarəetmə strukturunun yaradılış mühümlüyü və fəaliyyət mexanizmi isə məhz yuxarıda sadaladığımız nəsnələri əhatə etməli, nominal olaraq fərdi yanaşma prinsipləri üzərində qurulmalıdır. Mahiyyət etibarilə yerli özünüidarəetmə strukturunun zəruriliyinin isbatı məqsədilə aşağıda göstərilən bir neçə faktorları təhlil etməyi daha məqsədəuyğun hesab edirik:

**2.1.İnsan faktoru**

Dövrümüzdə bir çox elmlərin tədqiq etdiyi real bir gerçəklikdir. Başlanğıc mahiyyət sferasında isə ilk növbədə insanın fərd qismində təhlili nəzərdən keçirilməlidir: "Fərd-özünəməxsus psixoloji xüsusiyyətləri olan, heç kəsə oxşamayan təbii varlıq deməkdir. Fərd anlayışının evristik mənası da elə bundan ibarətdir" [Bayramov, s.129].

Referans olaraq göstərdiyimiz bu definisiyada hər şey məhz "özünəməxsusuluq" modelindən başlayır. Eramızdan əvvəl I minilliyə təsadüf edən və qədim yunan dövrünə aid edilən sofizm fəlsəfəsində də insan amili rasional və irrasional substansiyaların ölçüsü olaraq dəyərləndirilir. Görkəmli ingilis sosioloqu Herbert Spenser də eyni rakursdan yanaşmaqla cəmiyyətin xarakterinin məhz onu təşkil edən fərdlərin xarakteri ilə müəyyən olunduğunun isbatına çalışmışdır. İnsan faktorunun mühümlüyünə dair kifayət qədər nümunələrə istinad etmək mümkündür. Şübhəsiz, mövcud kriteriyalar fonunda müvəffəqiyyətli yerli özünüidarəetmə konsepsiyasını formalaşdırmaq kifayət qədər böyük ustalıq tələb edir. Yəni idarə edən subyekt nəinki müdrik, hətta təməl psixoloji bilgilərə də sahib olan bir şəxsiyyət olmalıdır. Bu yönümdən dünya elm tarixində inqilabi kəşflərə sahib ingilis fiziki, astronom, filosof və kimyaçı kimi tanınan İsaak Nyuton söyləmişdir: "Fizika, metafizikadan qorx!" [Əsədova, s.338].

Demokratik dəyərlər fonunda yerli özünüidarəçilik elementlərinin insan faktoru üzərində qurulması fundamental meyar hesab edilməlidir. Başlıcası isə ədalət və şəffaflıq prinsipi burada əlahiddə bir səciyyə daşımalıdır. Çünki dünya tarixinin müharibə, qətliam və digər istibdad elementlərinin demək olar

ki, əksəriyyətində şəffaflıq və ədalət prinsipi tapdalanmış, şəxsi mənafe və eqoistik idarəçilik isə qabardılmışdır. Bu cür disfunksional yanaşmanın mövcudluğuna qədim Misir papiruslarında yazılmış təxminən 4 min ildən çox tarixə sahib olan Ptaxotep öyüdlərində də rast gəlmək mümkündür. Bu öyüdlərə görə istənilən rəhbər vəzifəyə sahib şəxs qarşısında boynunu bükmək, əllərini aşağı salmaq, belini əymək mütləq dərəcədə vacibdir. Yalnız bu cür hallarda sənin şikayətinə baxılacaq, işlərin qaydasında olacaq, həmçinin diqqət və qayğı ilə əhatə olunacaqsan.

**2.2.İdarəetmə**

Çağdaş dünyada müxtəlif platformalar üzrə geniş istifadə olunan terminlərdən biridir. İnnovativ sferaların bir çox sahələrində isə idarəetmə anlayışı menecment anlayışı ilə əvəzlənmişdir. Paralel olaraq idarəetmə anlamının definisiyası da cüzi istisnalarla mahiyyəti eynidir. Ümumiləşdirilmiş kontekstdə isə idarəetmə, idarə edən subyektin idarə olunan obyekt üzərində qarşıya qoyulmuş məqsəd və tapşırıqların icrası üçün normativ-hüquqi prinsiplər əsasında təsir mexanizmi olaraq qəbul edilir. Taksonomik yanaşma baxımından isə müxtəlif istiqamətli idarəetmə nəzəriyyə və ya məktəbləri mövcuddur. Frensis Teylorun daha çox iqtisadi nəsnələri əhatə edən elmi idarəetmə nəzəriyyəsi, Anri Fayolun planlaşdırma və təşkilati məsələləri özündə birləşdirən inzibati idarəetmə nəzəriyyəsi, Maks Veberin bürokratik elementlər üzərində qurulan bürokratik idarəetmə nəzəriyyəsi, menecerlik fəaliyyətinə məxsus empirik məktəb, fərdi yanaşma amilləri əsasında qurulan sosial sistem məktəbi, modern prinsiplərin spesifikliyini əks etdirən texnokratik və menecerlərin inqilabi nəzəriyyəsi və digər modellər əyani bir isbatdır. Hərb mütəxəssislərinin stolüstü kitabı olaraq qəbul edilən qədim Çinin "Hərb sənəti" əsərində də idarəetmə konyukturası özünəməxsus şəkildə təfsir olunmuşdur: "Əgər sərkərdənin ağlı yoxdursa, o, rəqibi qiymətləndirə və lazımi taktikanı işləyib hazırlaya bilmir; əgər onun qərəzsizliyi (ədaləti) yoxdursa, o, digərlərinə əmr verə və tabeçiliyində olanları arxasınca apara bilmir; onun humanistliyi yoxdursa, o, kütlələri özünə cəlb edə və əsgərləri özünə bağlaya bilmir; onun cəsarəti yoxdursa, onda hər hansı hərəkətə keçmək və döyüşə girmək üçün qərara gələ bilmir; əgər o ciddi deyildirsə, onda güclünü özünə tabe etdirə və kütləni idarə edə bilmir. Bu beş keyfiyyətə tam malik olan-sərkərdənin təcəssümüdür" [Tszin, s.178]

Yuxarıdakı istinadlara məntiqi yanaşma bizə idarəçilik elementlərinə hopmuş fəlsəfə, psixologiya, sosiologiya və digər elmlərə məxsus ibarələrin toplumunu görməyə imkan yaradır. Bu baxımdan görkəmli roma imperatoru Mark Avrelinin yekun qənaətini məqbul hesab etmək daha doğrudur: "Əgər çarlar filosof və ya filosoflar çar olsaydı bəşəriyyət necə də xoşbəxt olardı". [Rüstəmov, s.94]

Yerli özünüidarəetmə elementlərinin məhz sadaladığımız nəsnələr üzərində peşəkarcasına qurulmasının mühümlüyü, tamamilə anlaşılan vahid bir kompleksidir. Fikrimizcə idarəçilik tabelikdə olanlara təkcə əmr və ya göstəriş verməklə məhdudlaşmır. O, həmçinin bütün kateqoriyalı sosial zümrələri də arxasınca aparmağı bacarmalı, insan faktorunu həmişə bir aktor element olaraq dəyərləndirməlidir.

**2.3.Demokratik dövlət və vətəndaş cəmiyyəti**

Substantik yanaşma baxımından yuxarıda təhlil etməyə cəhd etdiyimiz hər iki faktorun sintezidir. Şübhəsiz, bu sinenergetik bələdçi təkcə bu iki amil üzərində qurulmayıb. Belə ki, demokratik dövlət və vətəndaş cəmiyyətinın fundamental subyekti insan və onun hüquqlarını müdafiə edən dövlət modelidir. Başlıca şərt isə insan hüquq və azdlığıdır. Bu aspektdən yenidənqurmanın memarlarından biri sayılan S.M.Yakovlev söyləmişdir: “Mən bilmirəm sosializm nədir, mən bilmirəm kapitalizm nədir. Bunlar mənə məlum deyil. Ola bilsin ki, avamlığımdan mən bunları başa düşmürəm. Biz nə quracağıq? Mən həmişə eyni sözü deyirəm: normal vətəndaş cəmiyyəti qurmaq lazımdır” [Əsgərov, s.8]

Məhz buna görə yerli özünüidarəetmə anlamının müvəffəqiyyətli stadiyası xalqın, millətin etnik-psixoloji dəyərləri, bütövlükdə multikultural elementlər üzərində bərqərar olması vacib şərtdir. Milli-mənəvi dəyərlər, insan amilinin hüquq və azadlığı və digər təməl kriteriyalar isə bilavasitə normativ-hüquqi prinsiplərə əsaslanan meyarlar üzərində qurulmalıdır. Çünki normativ-hüquqi prinsiplərin defisiti özbaşınalıq, xaos, o cümlədən mənəvi-əxlaqi dəyərlərin istisnasını əhatə edən nihilizm davranışına gətirib çıxarır. Vətəndaş cəmiyyətində mövcud ola biləcək neqativ elementlər (soyğunçuluq, oğurluq, qəsdən adam öldürmə, quldurluq və s.) qətiyyən demokratik dəyər olaraq qəbul edilməməli, bu cür halların qarşısının alınması üçün sərt ehkamlar üzərində formalaşan güclü təsir mexanizmi yaradılmalıdır. Bu baxımdan normativ-hüquqi bazanın yaradılması demokratik dövlət və vətəndaş cəmiyyətinin tənəzzülü deyil, məhz tərəqqisi olaraq qəbul edilməli, sərt ehkamlar isə bilavasitə cinayət xarakterli məsuliyyəti olan şəxslər üzərində tətbiq olunmalıdır Bu cür demokratik yanaşma isə 1400 ildən çox yaşı olan islam dininin ilahi kitabı Qurani-Kərimdə müfəssəl şəkildə izah olunur. Müqəddəs ayələrdə qeyri-əxlaqi nəsnələrin, o cümlədən nihilizm fəlsəfəsinin sərt bir şəkildə tənqid olunmağına baxmayaraq Əl-Bəqərə surəsinin 256-cı ayəsində deyilir: “Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) aydın fərqlənir” [Qurani-Kərim, s.41].

İstinad etdiyimiz müqəddəs ayənin timsalında gerçək demokratiya modeli tamamilə aydın və şəffafdır. Bəşəriyyətin üzərinə düşən əsas öhdəlik də məhz doğruluğun azğınlıqdan aydın fərqləndirilməsi, o cümlədən gerçəkliyin vahid

bir formatda tədqiqidir. Bu aydın fərqləndirmə isə bütün kateqoriya və subkateqoriyaları əhatə etməlidir. Çağdaş ABŞ dövlətinin bani atalarından biri olan Corc Vaşinqtonun söylədiyi kimi: "*Yer əkməyin də poema yazmaq qədər şərəfli məşğuliyyət olduğunu dərk etməyincə heç bir millət çiçəklənmə pilləsinə yüksələ bilməz*" [Hacıyev, s.307].

**3.Nəticə**

Sadaladığımız kiçik tədqiqatlar fonunda mahiyyət etibarilə yerli özünüidarəçilik strukturunun nə dərəcədə zəruri bir əhəmiyyət kəsb etdiyini təsəvvür etmək o qədər də çətin deyil. Mövcud kontekstin elementlərini isə aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür.

Qədim çağlardan modern dövrümüzədək dünya tarixinin müharibə və qətliamlarla dolu "şanlı" səhifələrində vacib məqamlardan biri məhz insanın fərdi xarakterik xüsusiyyətlərində olan olan destruktiv elementlər hesab olunur. Bu destruktivliyin qabardılaraq dövlət, hakimiyyət, idarəçilik, və digər zəruri platformalara sirayət etməsi isə kataklizmlərin başlanğıcı olaraq təhlil edilməli, mütləq qaydada preventiv tədbirlər həyata keçirilməlidir. İdarəçilik səlahiyyətinə, vəzifəsinə sahib insanların xarakterində olan dualizm prinsipi (yaxşılıq və pislik, xeyir və şər, mərhəmət və qəddarlıq və s.) spesifik şəkildə analiz edilməlidir. Məhz bu meyarlara görə hələ eramızdan əvvəl I minillikdə Qədim Çində dövlət postlarına namizəd olan məmurlar üçün xüsusi imtahan metodları təsis olunmuşdu. Namizədlər nəinki fərdi bilik və bacarıq, həmçinin situativ vəziyyətləri özündə ehtiva edən praktiki tapşırıqları da müvəffəqiyyətlə icra etməli idilər. Bu xüsusi imtahanlar namizədlərin xarakterik xüsusiyyətlərində olan neqativ elementləri və çatışmazlıqları aşkar etməyə kömək edir, dövlət qulluğuna qəbul olunduqdan sonrakı dövrlərdə belə nəzərə alınırdı. Məşhur alman filosofu Nisşe isə bu dual yanaşmanı daha da konkretləşdirmişdir: "İnsanda pislik və yaradıcı bir yerdə birləşmişdir: insanda material, qırıntı, gil, palçıq, mənasızlıq, xaos var; ancaq insanda həm də yaradıcı, qurucu, ildırım bərkliyi, ilahi nəzər sahibi və yeddinci gün var-siz bu ziddiyyəti anlayırsınızmı?" [Əsədova, s.166].

Demokratik meyarların başlıca səciyyəvi əlamətlərindən biri onun vətəndaşa, sosial təbəqəyə, cəmiyyətə xidmət etməsi, başlıcası onların hüquq və azadlıqlarının qorunmasıdır. Bu yönümdən çağdaş Türkiyə dövlətinin qurucusu Atatürk söyləmişdir:"Millətə əfəndilik etmək yoxdur, xidmət etmək var. Bir millətə xidmət edən onun əfəndisi olur" [Əsgərov, s.222].

Uğurlu inkişaf strategiyasına əsaslanan dövlət quruculuğunda məhz yuxarıda sadaladığımız nəsnələrə görə bu modelləri bilavasitə həyata keçirən xüsusi dövlət strukturunun mövcudluğu labüddür. Müasir dövlət idarəçiliyində isə bu öhdəlikləri bilavasitə yerli özünüidarəetmə orqanları həyata keçirməlidir.

Nəinki yerli özünüidarəetmə, bütövlükdə dövlət idarəçiliyi şəffaflıq, ədalət və digər mühüm inteqrativ elementlər üzərində qurulmalıdır. Unutmaq lazım deyil ki, demokratik dəyərlər heç də ölkə vətəndaşına yönəlik “Nə istəyirsən et!” prinsipi üzərində qurulmamalıdır. Fərdi yanaşma baxımından isə bu hədsiz dərəcədə təhlükəli problemdir. Hüquqi tənzimlənmə burada nominal yanaşma baxımından kifayət qədər mühüm bir zərurətə çevrilməlidir. Məhz bu aspektdən ABŞ dövlətçilik tarixində ən çox hakimiyyətdə qalan və xalqının sevimli prezidenti olaraq qəbul edilən Franklin Ruzvelt söyləmişdir: “İbtidai təhsilli oğru dəmir yolu vaqonundan nə isə bir şey oğurlaya bilər, universitet təhsilli oğru isə bütün dəmir yolunu oğurlayar” [Əfəndiyev, s.267]

Bu yönümdən yerli özünüidarəçilik strukturunda normativ-hüquqi yanaşma elementləri mənəvi-əxlaqi dəyərlər üzərində bərqərar olmalı, hüquq və azdlıq prinsipləri əsas götürülməli, yalnız qanun pozuntularının yaranacağı təqdirdə sərt cəza mexanizmləri işə düşməlidir. Fikrimizin isbatı olaraq yenidən müqəddəs Qurani-Kərimə müraciət etməyimiz daha məqsədəuyğundur. Dual yanaşma prinsiplərinin aydın, şəffaf bir şəkildə sərhədlənmiş, xüsusilə neqativ anlamların faciəvi nəticələrinin dəfələrlə xatırlandığına baxmayaraq Əş-Şuəra surəsinin 3-4-cü ayələrində deyilir: “[Ya Məhəmməd!] Məkkə müşrikləri iman gətirməyəcəklər deyə, bəlkə özünü həlak edəsən?! [Özünü həlakmı edəcəksən?]. Əgər istəsək, göydən onlara bir ayə [dəlil] göndərərik, onlar da ona [səssiz-səmirsiz] boyun əyib durarlar” [Qurani-Kərim, s.366]

Müstəqil Azərbaycan Respublikasında yerli özünüidarəetmə kontekstində demokratik dövlət və vətəndaş cəmiyyəti isə ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu səbatlı metamodel üzərində qurulmalı və inkişaf etməlidir. Nəticə etibarilə apardığımız “genişmiqyaslı” tədqiqatımızın bütün təməl meyarları isə ümummilli liderimizin bircə cümləsi ilə konkretləşir: “Biz düz yolla- haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik” [Əsgərov, s.31]

## ƏDƏBİYYAT


**1.** Aristotel. (2006). Siyasət. XXI-Yeni Nəşrlər evi, 432s.
**2.** Əsədova, A. (2014). Ədəbiyyatlaşan dünya. Elm, 380s.
**3.** Bayramov, Ə.S. , Əlizadə, Ə.Ə. (2002). Psixologiya. Bakı, 620s.
**4.** Tszin, U. (2009). Hərb sənəti. Zəkioğlu, 620s.
**5.** Rüstəmov, F. (2010). Pedaqogika tarixi. Elm və təhsil, 750s.
**6.** Əsgərov, Ş. (2008). Düşüncə tərzi. Azərbaycan, 356s.
**7.** Bünyadov, Z. , Məmmədəliyev, V. (1992). Qurani-Kərim. Bakı, 652s.
**8.** Hacıyev, Z. (2015). Fəlsəfə. Turan evi, 488s.
**9.** Əfəndiyev, M. (2009). Sosiologiya. Bakı universiteti, 520s.

## REFERENCES

1. Aristotle. (2006). Politics. XXI-Yeni Nashrler evi, 432p.
2. Asadova, A. (2014). Literary world. Science, 380p.
3. Bayramov, A.S. , Alizade, A.E. (2002). Psychology. Baku, 620p.
4. Tsjin, U. (2009). Martial arts. Zakioglu, 620p.
5. Rustamov, F. (2010). History of pedagogy. Science and education, 750p.
6. Asgarov, Sh. (2008). Thinking style. Azerbaijan, 356p.
7. Bunyadov, Z. , Mammadaliyev, V. (1992). Qurani-Karim. Baku, 652p.
8. Hajiyev, Z. (2015). Philosophy. Turan House, 488p.
9. Efendiyev, M. (2009). Sociology. Baku University, 520p.